Aqrar Xidmətlər Agentliyi

# ŞƏRQ MEYVƏYEYƏNİ

## (Grapholita molesta Busck.)



088-588

axa.gov.az

## Zərərverici haqqında

Kəpənəklərinin rəngi bozumtul-qara, bığcıqları sapvaridir. Ön qanadlarının qabaq kənar larında çəpinə olmaqla, cərgə ilə düzülmüş və dırnaq işarəsini xatırladan ağ zolaqlar vardır. Arxa qanadları tünd qəhvəyidir. Kəpənəklərin bədəninin uzunluğu 6-7 mm olmaqla, qanadlar açılan zaman eni 12-14 mm-dir. Zərərverici yumurtalarını ən çox cavan zoğların yar paqlarının alt səthinə qoyur. Yay dövründə şərq meyvəyeyəninin bir nəslinin inkişafı 29-44 günə başa çatır. Zərərverici ildə 5 nəsil verir.

## Mübarizə tədbirləri

- Zərərvericinin torpaqdakı tırtıllarını və puplarını məhv etmək məqsədilə cərgələrin arası şumlanmalı və kultivasiya edilməli, ağacların kökboğazı ətrafı bellənməlidir;
- Meyvə saxlanılan binalar və onların ətrafı qalıqlardan (zibildən) müntəzəm surətdə təmizlənib yandırılmalıdır.

**Təsiredici maddəsi** deltametrin (0,7 l/ha), malathion (1-3 l/ha), lambda-cyhalothrin (0,3-0,4 l/ha), indoxcarb (1,5-2 l/ha) və s. preparatların biri ilə kimyəvi mübarizə aparıla bilər. Məhsul yığımına 20 gün qalmış pestisidlərin istifadəsi dayandırılmalıdır.



**Yetkin fərd**



**Zədəsi**